# ŞUŞA ŞƏHİDLƏRİ



## "Ana, məndən narahat olmayın, Şuşanı almağa gəlmişəm..."

**Böyük qalibiyyətlə bitən Vətən müharibəsində tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Qələbəyə öz qanları ilə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız bir dastan qoyub gediblər.**

Əsrlər boyu müharibə yer üzünün ən böyük fəlakətidir. Milyonlarla insan müharibələrdə canından keçib. "Təki Vətən sağ olsun!" deyən şəhid valideynləri bayrağı bağrına basaraq hönkürsələr də onların gözlərində bir məğrurluq, bir fəxarət hiss olunub. Onlar canını Vətənə fəda edən bir övlad böyütmüşdülər. Belə igid, qorxmaz qəhrəmanlarımızdan biri də Vətən müharibəsi savaşında şəhid olan Nurlan Həsənovdur.

**Nurlan Nadir oğlu Həsənov** 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub. O, ailənin ilk övladı idi. Ailə Birinci Qarabağ müharibəsindən sonra öz doğma torpaqlarından didərgin düşüb və məcburi köçkün kimi Bakıda məskunlaşıb.

1997-ci ildə Bakıda Şuşa şəhər 3 nömrəli tam orta məktəbinə daxil olub, 2008-ci ildə həmin məktəbi əla qiymətlərlə başa vurub. 2008-2012-ci illərdə Azərbaycan Texnologiya Universitetinin "İnzibati idarəetmə" ixtisası üzrə təhsil alıb. Nurlan hər zaman vətənpərvərliyi, mərdliyi, əsl kişi xarakteri ilə çoxlarından fərqlənirdi. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Daha sonra leytenant kimi Gəncədə "N" saylı hissədə müddətli hərbi xidmət çəkib və 2014-cü ildə ehtiyatda olan zabit kimi tərxis edilib.

Nəhayət, Nurlan da minlərlə cəsur oğullarımız kimi, 2020-ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub. Azərbaycan Ordusunun leytenantı olan Nurlan sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Həsənov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsində dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Nurlan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimizin bir qızı və bir oğlu yadigar qalıb. Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə fəal iştirak edən Nurlan, "Ana, məndən narahat olmayın, burada hər şey yaxşıdır, Şuşanı almağa gəlmişəm", - deyə söyləyərmiş...

## Şuşanı görmək ən böyük arzusu idi

**Pərviz Məmmədov da Vətən müharibəsinin igid qəhrəmanlarından biridir. Əslən Şuşa rayonunun Turşsu kəndindən olan Pərvizin atası Şakir Məmmədov da Qarabağ qazisidir. O, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində qabaqca könüllü olaraq, sonra isə Şuşa Rayon Polis Şöbəsinin əməkdaşı kimi Şuşadan Tərtərədək bütün cəbhəboyu döyüşlərdə iştirak etmiş və dəfələrlə yaralanıb, lakin yenə də ön xəttə qayıdıb.**

Pərviz 2001-ci il martın 25-də Bərdə rayonunda anadan olub. 2007-ci ildə İsrafil Şahverdiyev adına Laçın rayonu Ağanus kənd tam orta məktəbinin 1-ci sinfinə gedib. Bir qədər sonra orta təhsilini Şuşa şəhər 18 nömrəli tam orta məktəbində davam etdirib. 2018-ci ildə həmin məktəbi bitirib. 2 aprel 2019-cu ildə Azərbaycan Ordusu sıralarında hərbi xidmətə yollanıb. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan zaman könüllü olaraq döyüşlərə qatılıb.

29 sentyabr 2020-ci ildə Füzuli-Cəbrayıl istiqamətində "Nüzgar postu"nda qəhrəmancasına şəhid olub. Pərviz hələ uşaq yaşlarında idmanın kikboksinq növünə böyük maraq göstərib, dəfələrlə müxtəlif yarışların qalibi olub.

Doğmalarının və döyüş yoldaşlarının dediyinə görə, Şuşanı görmək Pərvizin ən böyük arzusu olub.

Qohumu Amil müəllimin xatirələrindən: "Pərviz nəslimizin iftixarıdır, Ancaq mən ona təkcə bizim qəhrəman kimi yanaşmıram. Bəli, mən, əlbəttə, fəxr edirəm ki, bizim Şuşamızın, Turşsumuzun Pərviz kimi oğlu var. Fəxr edirəm ki, əmim Şakirin özü kimi oğlu da Vətən yolunda sinəsini düşmən qarşısında sipər elədi. Bu ailənin üzvləri lap ilk günlərdən Vətən yolunda çarpışıb və igidlik göstəriblər. Ancaq Pərviz Vətən müharibəsində qəhrəmancasına vuruşaraq, torpaqlarımızın işğaldan azadlığı uğrunda şəhid olub. Biz onun özünü də çox sevirdik, xatirəsi də bizim üçün çox əzizdir…".

Qeyd edək ki, Pərvizin daha bir əmisi - Qarabağda vaxtilə hamının qəhrəman kimi tanıdığı, yağıların ürəyinə qorxu saldığı Tahir Məmmədov da Şuşa uğrunda mübarizədə misilsiz xidmətlər göstərmişdi.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə



Məmmədov Pərviz Şakir oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**M.MİRZƏ,**
**"Respublika".**